**Leyla Həsənova: Gənclər innovativ fikirləri və texnoloji həlləri ilə iqlim dəyişikliklərinə qarşı mübarizədə dönüş yarada bilərlər**

Gənclər iqlim dəyişikliyi ilə mübarizəyə böyük töhfə verə bilərlər. Ümumiyyətlə, ətraf mühit savadlılığını təhsilin bütün mərhələlərində inkişaf etdirmək lazımdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri COP29-un Gənc iqlim çempionu Leyla Həsənova oktyabrın 24-də Bakı Konqres Mərkəzində keçirilən "İqlim dəyişiklikləri və enerji hüququ" konfransında çıxışı zamanı söyləyib.

L.Həsənova vurğulayıb ki, iqlim dəyişikliyinə qarşı mübarizə, sadəcə, hökumətlərin və təşkilatların işi deyil, bu prosesə vətəndaşlar, xüsusən də gənclər fəal şəkildə qoşulmalıdırlar. O, gənclərin bu prosesdə oynaya biləcəyi mühüm rolu xüsusi qeyd edərək bildirib ki, gənclər gələcək liderlər olaraq, davamlı inkişafın və iqlim tədbirlərinin mərkəzində yer almalıdırlar. Onlar innovativ fikirləri və texnoloji həlləri ilə iqlim dəyişikliklərinə qarşı mübarizədə dönüş yarada bilərlər. Buna görə də gənclərin təhsil və maarifləndirilməsi sahəsində ciddi addımlar atılmalıdır.

**AZƏRTAC**
**2024, 24 oktyabr**